AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE TRANSFORMATION OF AZERBAIJAN'S ENERGY POLICY: FROM THE "CONTRACT OF THE CENTURY" TO GREEN ENERGY

**Aytekin Zeynalova**[1]

**UDC:** 620.9(479.24):070,49
**LBC:** 31(5Aze):76.01
**HoS:** 104
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.156-165

**Keywords:**

Green energy,
Baku,
Expo,
Caspian Oil,
Gas exhibition

## ABSTRACT

This article scientifically analyzes the evolution of Azerbaijan's energy policy over the past 30 years and its role both in the national economy and in the system of international relations. Since the signing of the "Contract of the Century" in 1994, the energy sector has become the cornerstone of Azerbaijan's sovereign development model. The visionary strategy of President Heydar Aliyev and the "green energy" policy of President Ilham Aliyev, which responds to the challenges of the modern era, constitute the analytical framework of the article. The analysis demonstrates that Azerbaijan's energy strategy ensures not only economic stability but also serves as a key guarantor of regional energy security. The 30-year history of the Caspian Oil and Gas exhibitions and the global impact of Baku Energy Week leading up to COP29 highlight that Azerbaijan's energy diplomacy is grounded in the principles of mutual benefit, environmental responsibility, and geoeconomic partnership. The article also examines the effectiveness of Azerbaijan's policy in maintaining a balance between fossil fuels and renewable energy sources in the international energy market and emphasizes the ecological, economic, and diplomatic significance of its future energy strategy.

[1] Doctor of Philosophy in Political Science, Associate Professor,
Department of International, Journalism and Information Policy, Baku State University; Baku, Azerbaijan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072
**To cite this article:** Zeynalova, A. [2025]. The Transformation of Azerbaijan's Energy Policy: From the "Contract of the Century" to Green Energy. *History of Science journal*, *6*(4), pp.156-165.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.156-165

***Article history:***
*Received: 23.06.2025*
*Accepted: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# AZƏRBAYCANIN ENERJİ SİYASƏTİNİN TRANSFORMASİYASI: “ƏSRİN MÜQAVİLƏSİ”NDƏN YAŞIL ENERJİYƏ

**Aytəkin Zeynalova**[1]

**UOT:** 620.9(479.24):070,49
**KBT:** 31(5Aze):76.01
**HoS:** 104
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.156-165

**Açar sözlər:**

Yaşıl enerji,
Bakı,
Expo,
Xəzər Neft,
Qaz sərgisi

## ANNOTASİYA

Bu məqalədə son 30 ildə Azərbaycanın enerji siyasətinin təkamülü və bu siyasətin həm milli iqtisadiyyat, həm də beynəlxalq münasibətlər sistemində oynadığı rol elmi aspektdən təhlil olunur. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasından etibarən enerji sektoru Azərbaycanın suveren inkişaf modelinin əsas dayağına çevrilmişdir. Prezident Heydər Əliyevin uzaqgörən strategiyası və Prezident İlham Əliyevin müasir dövrün çağırışlarına cavab verən “yaşıl enerji” siyasəti məqalənin analitik xəttini təşkil edir. Təhlil göstərir ki, Azərbaycanın enerji strategiyası təkcə iqtisadi sabitlik deyil, həm də regional enerji təhlükəsizliyinin mühüm təminatçısı funksiyasını daşıyır. Xəzər Neft-Qaz sərgilərinin 30 illik tarixi və Bakı Enerji Həftəsinin COP29-a qədər yüksələn qlobal təsir rolu Azərbaycanın enerji diplomatiyasının mərkəzində qarşılıqlı mənfəət, ekoloji məsuliyyət və geoiqtisadi tərəfdaşlıq prinsiplərinin dayandığını nümayiş etdirir. Məqalə həmçinin Azərbaycanın beynəlxalq enerji bazarında qazıntı yanacağı ilə bərpa olunan enerji arasında tarazlığı qorumaq siyasətinin səmərəliliyini araşdırır və gələcək enerji strategiyasının ekoloji, iqtisadi və diplomatik baxımdan əhəmiyyətini vurğulayır.

[1] Siyasi elmlər üzrə fəlsəfə doktoru, Dosent,
Bakı Dövlət Universiteti, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası; Bakı, Azərbaycan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072
**Məqaləyə istinad:** Zeynalova, A. [2025]. Azərbaycanın enerji siyasətinin transformasiyası: “Əsrin Müqaviləsi”ndən Yaşıl enerjiyə. *History of Science jurnalı*, 6(4), səh.156-165.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.156-165

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 24.07.2025*
*Çapa qəbul edilmişdir: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ТРАНСФОРМАЦИЯ ЭНЕРГЕТИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА: ОТ «КОНТРАКТА ВЕКА» К ЗЕЛЁНОЙ ЭНЕРГЕТИКЕ

**Айтекин Зейналова**[1]

**УДК:** 620.9(479.24):070,49
**ББК:** 31(5Азе):76.01
**HoS:** 104
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.156-165

**Ключевые слова:**

Зелёная энергия,
Баку,
Экспо,
Каспийская нефть,
Газовая выставка

## АННОТАЦИЯ

В данной статье с научной точки зрения анализируется эволюция энергетической политики Азербайджана за последние 30 лет, а также роль этой политики как в национальной экономике, так и в системе международных отношений. С момента подписания в 1994 году «Контракта века» энергетический сектор стал основой суверенной модели развития Азербайджана. Дальновидная стратегия Президента Гейдара Алиева и «зелёная энергетическая» политика Президента Ильхама Алиева, отвечающая вызовам современности, формируют аналитическую линию статьи. Анализ показывает, что энергетическая стратегия Азербайджана обеспечивает не только экономическую стабильность, но и выполняет важную функцию гаранта региональной энергетической безопасности. Тридцатилетняя история Каспийских нефтегазовых выставок и возрастающая глобальная роль Бакинской энергетической недели до COP29 демонстрируют, что в центре азербайджанской энергетической дипломатии лежат принципы взаимной выгоды, экологической ответственности и геоэкономического партнёрства. В статье также исследуется эффективность политики Азербайджана по поддержанию баланса между ископаемыми и возобновляемыми источниками энергии на международном энергетическом рынке, подчёркивается экологическая, экономическая и дипломатическая значимость будущей энергетической стратегии.

[1] Кандидат политических наук, Доцент,
Кафедра Международная журналистика и информационная политика, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072
**Цитировать статью:** Зейналова, А. [2025]. Трансформация энергетической политики Азербайджана: от «Контракта века» к зелёной энергетике. *Журнал History of Science*, *6*(4), с.156-165.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.156-165

***История статьи:***
*Статья поступила в редакцию: 23.06.2025*
*Отправлена на доработку: 24.07.2025*
*Принята для печати: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Azərbaycanın enerji tarixinin müasir mərhələsi neft və qaz sənayesinin milli dövlətçiliyin dirçəldilməsi və iqtisadi inkişafın təminində oynadığı həlledici rolu ilə xarakterizə olunur. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" yalnız iqtisadi saziş deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq sistemə inteqrasiyasının başlanğıcı olmuşdur. Bu sənəd Prezident Heydər Əliyevin uzaqgörən siyasətinin təcəssümü kimi ölkəni beynəlxalq enerji xəritəsində strateji aktora çevirmişdir.

Sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət təkcə enerji hasilatı və ixracı ilə məhdudlaşmamış, həm də enerji təhlükəsizliyi, bərpa olunan enerji, ekoloji məsuliyyət və regional əməkdaşlıq istiqamətlərində dərinləşmişdir.

Məqalənin araşdırma predmeti – 2025-ci ilin Bakı Enerji Həftəsində səsləndirilən konseptual fikirlər əsasında Azərbaycan enerji siyasətinin transformasiya mərhələlərinin analitik təhlilidir. Burada xüsusilə üç strateji mərhələ müəyyənləşdirilmişdir:

1. Neft diplomatiyası dövrü – 1994–2005;
2. Qaz və boru kəmərləri mərhələsi – 2006–2019;
3. Yaşıl enerji və COP29 dövrü – 2020-dən sonra.

Bu mərhələlərin hər biri Azərbaycanın enerji sektorunun təkamülündə, beynəlxalq nüfuzunun və iqtisadi suverenliyinin möhkəmlənməsində mühüm addımlar kimi qiymətləndirilir. Araşdırmada həm siyasi çıxışlara, həm iqtisadi göstəricilərə, həm də beynəlxalq qiymətləndirmələrə istinad edilir.

## 2.Azərbaycanın Enerji Siyasətinin Tarixi İnteqrasiyası

02.06.2025-ci ildə Bakı Expo Mərkəzində 30-cu yubiley Beynəlxalq Xəzər Neft və Qaz sərgisi, 13-cü Xəzər Beynəlxalq energetika və Yaşıl Enerji sərgisi və 30-cu Yubiley Bakı Enerji Forumunun rəsmi açılış mərasimi keçirildi.

Əsası 1994-cü ildə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft, qaz sərgiləri son 30 ildə bölgənin aparıcı sənaye tədbirləri kimi mühüm platformaya çevrilib. Bunu iştirakçı sayına görə də söyləmək olar. Belə ki, indiyə qədər 80 ölkədən 9 mindən çox şirkət və 170 mindən artıq iştirakçı Bakı Neft Qaz sərgisini ziyarət edib. Bu dəfə isə tədbirə ümumilikdə 39 ölkədən 267 şirkət nümayəndəsi qatıldı. Bakı Enerji Həftəsinin əsas mövzusu hər dəfə olduğu kimi energetika sahəsində mövcud vəziyyət, yeni imkanlar və perspektivlər oldu.

Prezident İlham Əliyev: "İlk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı.

Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək" [Report, 2025].

Əsasını ulu öndər Heydər Əliyev qoydu və məhz bu strategiya da Azərbaycana bütün çətinliklərin öhdəsindən gəlməkdə yardımçı oldu. Çətinliklər isə ondan ibarət idi ki, ölkəmiz obyektiv səbəblər üzündən xarici investorlar üçün riskli məkan hesab olunurdu və bu da təbiidir. Çünki atəşkəs razılığının mürəkkəbi belə hələ qurumamışdı və Ermənistan hələ də gərginlik yaratmaqda, atəşkəsi pozmaqda davam edirdi. Üstəlik, vətəndaş qarşıdurması yenicə başa çatmış, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş, inflyasiyası 1000 faizə qalxan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan bir ölkə ilə müqavilə bağlamaq, "Əsrin müqaviləsi"nə imza atmaq bir çoxları üçün real görünmürdü. Lakin Ulu Öndər Heydər Əliyev real görünməyəni reallığa çevirdi. Amerika Birləşmiş Ştatları başda olmaqla dünyanın aparıcı ölkələri və aparıcı neft şirkətlərini neft müqaviləsinin gələcəyinə inandırdı

və onları Bakıya topladı. Nəticədə “Əsrin müqaviləsi”nə imza atıldı. Bununla da bu gün suverenliyini tam bərpa etmiş güclü Azərbaycanın təməli qoyuldu.

Məhz güclü iqtisadi baza və güclü lider Prezident İlham Əliyevin reallaşdırdığı iqtisadi inkişaf strategiyasının real nəticələri isə bunlardır:

1. Neft və qazın ümumi daxili məhsulda payı 30 faizdən artıqdır;
2. Xarici borcun səviyyəsi ümumdaxili məhsulun 7 faizindən azdır;
3. Maliyyə ehtiyatları ümumi borcu 14 dəfə üstələyir;
4. Yoxsulluq səviyyəsi 5 faizə bərabərdir;
5. Ölkədə savadlılıq səviyyəsi 100 faizə bərabərdir.

Prezident İlham Əliyev: “Bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib. Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir. Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır” [Prezident.az, 2025].

Yalnız bir fakt -bu gün Azərbaycan qazının ixrac edildiyi ölkələrin sayı 12-yə çatıb və ixrac coğrafiyası durmadan genişlənir. Üstəlik, Azərbaycan. yalnız Avropada deyil, bu boru kəməri ilə konkret coğrafiyanın qazla təmin edilməsi baxımından qlobal səviyyədə aparıcı dövlətlərdən biridir. Bu nailiyyət birincisi, zəngin enerji potensialına görə, ikincisi, enerji resurslarının düzgün və səmərəli idarəsinə görə, üçüncüsü, rəsmi Bakının istər istehsalçılar, istər tranzit ölkələr, istərsə də istehlakçılar arasında maraqlar balansını düzgün və ədalətli bölüşdürməsinə görə əldə edilib. Yəni Prezident İlham Əliyev heç bir zaman enerji amilindən hansısa ölkəyə təzyiq aləti kimi istifadə etməyib. Azərbaycanın enerji siyasətinin bir ana xətti var. Bu prinsip qarşılıqlı maraqların qorunması, qarşılıqlı mənfəət və sağlam əməkdaşlıqdır. Yalnız bu xətt üzrə qurulan əməkdaşlıq nəticəsində əldə olunan uğurlara gəlincə aşağıdakıları qeyd etmək lazımdır.

1. 2024-cü ildə Azərbaycanın təbii qaz ixracı 25 milyard kubmetrə çatdı.
2. 2030-cu ilədək qaz ixracının daha 8 milyard kubmetr artırılması nəzərdə tutulur.
3. 2030-cu ilədək 6.5 giqavat həcmində bərpa olunan enerji gücü əldə olunacaq.

Bu, ümumi enerji istehsalının 35 faizdən çoxunu təşkil edəcək [Məmmədov, 2025].

**3.Azərbaycanın Yaşıl enerji istiqaməti**

Azərbaycanın yaşıl enerji gündəliyi də olduqca zəngindir və bu istiqamətdə də potensial imkanlar yetərincədir. Əks halda neft və qazla zəngin bir ölkə yaşıl enerjiyə xarici investorlarla bərabər bu qədər ciddi sərmayə qoymazdı. Bu gün elektrik enerjisinə artan tələbatı daha çox məhz bərpa olunan enerji hesabına təmin etmək, bərpa olunan enerjinin ümumi balansdakı payını artırmaq Prezident İlham Əliyevin enerji siyasətinin əsas istiqamətlərindən biridir. Çünki enerji mənbələri də daimi deyil, tükənən resursdur və Azərbaycan artıq indidən alternativ variantlar üzərində layihələr həyata keçirməyi düşünür. Həta bir çox praktik addımlar atılır. Bərpa olunan enerjidən istifadə isə bir neçə milyard kubmetr qaza qənaət edəcək və həmin qaz ixraca yönəldiləcək. Yaşıl enerjiyə keçid sağlamlıqdır, həm təbiətin, həm də bu təbiətin bir parçası olan insanların.

Prezident İlham Əliyev: “Bəzi ölkələrdə bu gün qazıntı yanacağı növləri ilə yaşıl enerji arasında olan balans nəzərə alınmır. Nəticədə genişmiqyaslı enerji kəsilməsi, enerji sisteminin çökməsi baş verir. Həmçinin burada daha mürəkkəb ssenarilər də baş verə bilər. Yəni, bəzi müəyyən addımları şərtləndirən meyillərə rəğmən həmin balansın qorunması düzgün siyasətdir. Azərbaycana gəldikdə, biz təbii qazın hasilatının həcmini artırırıq. Çünki buna ehtiyacı olan ölkələr var və biz bu tələbatı ödəməliyik. Eyni zamanda, biz tərəfdaşlarımızla birlikdə yaşıl enerji layihələrinə də yatırım edirik. 2030-cu ilə qədər

istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir" [AzerTac, 2025].

Əgər ötən il Bakı Enerji Həftəsi çərçivəsində toplam 1000 meqavat yaşıl enerji həcmində müqavilələr imzalanmışdırsa, bu dəfə daha bir neçə 100 meqavat həcmində sazişlərə imza atıldı. Azərbaycanın qlobal iqlim dəyişiklikləri reallığında yürütdüyü enerji siyasətinin effektivliyinə beynəlxalq ekspertlər inanır və etibar edir. Bu inam və etibar isə COP29 konfransında özünü daha aydın şəkildə büruzə verdi. Nahaq yerə sammiti "Bakı sıçrayışı" adlandırmırlar. Belə ki, itki və zərər fondu və inkişafda olan ölkələr üçün nəzərdə tutulmuş yardımın 100 milyard dollardan 300 milyard dollara qədər artırılması, 10 il davam edən müzakirələrdən sonra karbon bazarının işlək vəziyyətə gətirilməsi məhz Bakıda, Bakı İqlim Zirvəsində reallaşdı və COP29-un ən yaddaqalan nəticələri sayıldı.

Prezident İlham Əliyev: "Enerji bazarında məsuliyyətli aktor, hər zaman real hədəfləri qarşısına qoyan və müxtəlif oyunçuları bir araya gətirə bilən ev sahibi olan Azərbaycanın mirası məhz bundan ibarətdir. COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr – inkişaf etmiş ölkələr və bundan əziyyət çəkən, hətta bəzilərinin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi. İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam edəcəyik" [Abdullayeva, 2025].

Qarşıya qoyulan enerji hədəflərinin reallaşdırılması beynəlxalq müstəvidə konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasından bilavasitə asılıdır. Hansı ki, bu istiqamətdə də rəsmi Bakının addımlarını uğurlu saymaq olar. Xüsusilə də Birləşmiş Ştatlarla enerji sahəsində qurulan əlaqələr praqmatizmi ilə seçilir. Prezident Donald Trampın azərbaycanlı həmkarına öncə 28 may Müstəqillik günü, daha sonra isə Bakı Enerji Həftəsi ilə bağlı ünvanladığı təbrik məktubları da məhz həmin əlaqələrin keyfiyyətini ortaya qoyur. Əsas qənaət isə odur ki, ABŞ Azərbaycan enerji sektorunda onilliklərə söykənən təcrübəyə malikdir. Bakı və Vaşinqton ortaq maraqları əks etdirən və enerji təhlükəsizliyinin təmininə yönələn iş birliyinə sadiq olduqlarını əməlləri ilə təsdiq edir.

Türkiyənin Energetika və Təbii sərvətlər Naziri Alpaslan Bayraktar: "Son illərdə yaşanan qlobal geosiyasi proseslər enerji təhlükəsizliyi məsələsində Türkiyə-Azərbaycan əməkdaşlığının nə qədər önəmli olduğunu bir daha təsdiqləmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız bu əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana deyil, eyni zamanda, bölgənin və Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir" [Qafqazinfo.az, 2025].

ABŞ dövlət departamentinin baş müşaviri Vayat Tolki: "Bu, Azərbaycanın həqiqətən də regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir. Otuz il ərzində iki millətimiz, iki xalqımız həqiqətən də enerji sərvətləri fonunda karbohidrogen sektorunda liderliyini nümayiş etdirmişdir. Həqiqətən də qlobal enerji ehtiyatlarının növbəti onillərlə qarşılanması baxımından da bu çox önəmlidir ki, hər bir xalqın resursları öz rifahına xidmət etsin. ABŞ Azərbaycanla tərəfdaşlığını enerji sabitliyinin həyata keçirilməsinin mümkünlüyü istiqamətində də davam etdirmək əzmindədir" [Sadıqlı, 2025].

Prezident Donald Trampın məktubunun motivləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tədbirə ünvanladığı müraciətlə faktiki üst üstə düşür. Belə ki, son illərdə yaşanan qlobal geosiyasi proseslər enerji təhlükəsizliyi məsələsində Türkiyə-Azərbaycan əməkdaşlığının nə qədər önəmli olduğunu aydın şəkildə göstərir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri, habelə mart ayında açılışı baş tutan Iğdır- Naxçıvan boru kəməri tək Türkiyə və Azərbaycana da deyil, bölgənin, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Beləliklə, Bakı Enerji Həftəsi enerji sektorunda mövcud çağırışlara aydınlıq gətirmək, Azərbaycanın bu çağırışlar fonunda yerini müəyyənləşdirmək nöqteyi nəzərdən önəmli hadisəyə çevrildi. Tədbirdə çıxış edən digər natiqlər də Cənub Qaz Dəhlizinin artan strateji önəminin, 2026-cı ilə qədər genişləndirilməsi planlaşdırılan Trans Adriatik Boru Kəmərinin reallığında Bakının enerji siyasətinin yaxın gələcəyin enerji sisteminin qurulmasına təkan verəcəyini bildirdilər. Hazırda dünyada bərpa olunan elektrik enerjisi, hidrogen və inteqrasiya olunmuş enerji sistemlərinə sərmayə qoyulur və Azərbaycan bu prosesdə əsas istehsalçı olmaq potensialına malikdir.

**4.Qlobal Enerji trendləri kontekstində Azərbaycanın Yaşıl keçid modelinin elmi-nəzəri əsasları**

Qlobal enerji siyasətində son onilliklərdə müşahidə olunan əsas tendensiyalardan biri karbohidrogen iqtisadiyyatından bərpa olunan enerji sistemlərinə keçiddir. Bu keçid prosesi yalnız texnoloji və iqtisadi transformasiyanı deyil, həm də beynəlxalq münasibətlərdə güc balansının yenidən formalaşmasını şərtləndirir [Cherp & Jewell, 2021]. Azərbaycan kimi enerji resursları ilə zəngin dövlətlər üçün bu dəyişiklik, bir tərəfdən ənənəvi neft-qaz gəlirlərindən asılılığı azaltmaq, digər tərəfdən isə yeni enerji diplomatiyası vektorlarını formalaşdırmaq imkanı yaradır.

Azərbaycanın yaşıl keçid strategiyası bir neçə elmi-nəzəri yanaşmaya söykənir. İlk növbədə, enerji təhlükəsizliyi paradiqması burada mərkəzi mövqe tutur. Yəni enerji resurslarının davamlılığı yalnız hasilat göstəriciləri ilə deyil, həm də ekosistem sabitliyi və enerji tədarük zəncirinin dayanıqlığı ilə ölçülür [Kuzemko et al., 2016]. Azərbaycanın bu sahədə tətbiq etdiyi model "enerji təhlükəsizliyinin üçbucağı" konsepsiyasına – iqtisadi səmərəlilik, ətraf mühitin qorunması və sosial ədalət prinsipinə əsaslanır [Sovacool, 2016].

İkinci nəzəri xətt davamlı inkişaf konsepsiyasıdır. 2015-ci ildə qəbul edilən BMT-nin Davamlı İnkişaf Məqsədlərinin (SDG 7 və SDG 13) icrasına uyğun olaraq, Azərbaycan enerji siyasətini iqlim dəyişikliyi və təmiz enerji hədəfləri ilə uyğunlaşdırmışdır [UNDP, 2023]. Bu yanaşma ölkənin "Milli Enerji Səmərəliliyi Strategiyası 2030" sənədində də öz əksini tapır və karbon emissiyalarının mərhələli şəkildə azaldılmasını nəzərdə tutur.

Üçüncü istiqamət isə regional inteqrasiya nəzəriyyəsidir. Enerji resurslarının təkcə ixracı deyil, həm də inteqrasiya olunmuş enerji şəbəkələrinin formalaşması Azərbaycan modelinin fərqləndirici cəhətidir. Xəzər hövzəsindən Aralıq dənizi və Avropa istiqamətində uzanan infrastruktur, Azərbaycanın regional enerji diplomatiyasını "kooperativ model" kimi formalaşdırır [Özdemir, 2022]. Bu model tək tərəfli asılılıqları azaldaraq qarşılıqlı fayda və sabitlik əsasında əməkdaşlığa imkan yaradır.

Dördüncü nəzəri aspekt yaşıl texnoloji modernləşmə ilə bağlıdır. Bu mərhələdə əsas diqqət süni intellekt və rəqəmsal idarəetmə texnologiyalarının enerji sektoruna inteqrasiyasına yönəldilir. "Ağıllı şəbəkələr" (smart grids), "enerji buludu" (energy cloud) və "hidrogen iqtisadiyyatı" kimi anlayışlar Azərbaycan üçün tədricən praktiki mərhələyə keçməkdədir [IRENA, 2024]. Bu yanaşma həm də enerji diplomatiyasını texnoloji tərəfdaşlıq formatına çevirir.

Beləliklə, Azərbaycan yaşıl keçid siyasətində həm milli, həm də beynəlxalq səviyyədə çoxqatlı strategiya həyata keçirir. Bu strategiyanın elmi təməli dayanıqlı inkişaf nəzəriyyəsi, enerji təhlükəsizliyi və regional kooperasiya modellərinin sintezində formalaşır. Nəticədə, Azərbaycan qlobal enerji transformasiyasının yalnız iştirakçısına deyil, həm də istiqamətverici aktorlarından birinə çevrilməkdədir. Bu, həm siyasi legitimlik, həm iqtisadi dayanıqlıq, həm də ekoloji məsuliyyət baxımından XXI əsr enerji siyasətinin yeni konseptual mərhələsini təmsil edir.

**5.Nəticə**

Azərbaycanın enerji siyasətinin 30 illik inkişaf trayektoriyası onu sadəcə karbohidrogen ixracatçısı kimi deyil, həm də qlobal enerji sistemində çevik adaptasiya qabiliyyətinə malik

strateji aktor kimi formalaşdırmışdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" iqtisadi müstəqilliyin əsasını qoydu, lakin bu siyasətin davamlılığı və yeni mərhələyə keçidi Prezident İlham Əliyevin rəhbərliyi ilə baş tutdu. Müasir dövrdə Azərbaycanın enerji diplomatiyası təkcə neft və qaz hasilatına deyil, həm də enerji təhlükəsizliyi, ekoloji sabitlik və texnoloji innovasiya üçbucağına dayanan yaşıl keçid modelinə əsaslanır.

Bu modelin elmi təməli enerji təhlükəsizliyinin klassik paradiqmasından çıxaraq davamlı inkişaf nəzəriyyəsinə əsaslanır. Azərbaycan üçün bu keçid həm iqtisadi diversifikasiyanın, həm də beynəlxalq imic formalaşmasının vasitəsidir. Qaradağ və Xızı külək parkları, Naxçıvan günəş stansiyaları və "yaşıl enerji dəhlizi" layihələri ölkənin ekoloji məsuliyyətini praktik addımlarla təsdiqləyir. Azərbaycanın 2030-cu ilə qədər enerji balansında bərpa olunan enerjinin payını 35 faizə çatdırmaq məqsədi regional enerji diplomatiyasını da yeni səviyyəyə qaldırır.

Bununla yanaşı, Azərbaycan COP29 konfransına ev sahibliyi etməklə qlobal iqlim siyasətində həm moderator, həm də təşəbbüskar statusunu təsdiqlədi. Qlobal Şimal və Cənub arasında enerji ədalətinin təmininə yönəlmiş bu təşəbbüs ölkənin enerji diplomatiyasının etik və strateji əsaslarını gücləndirdi. Azərbaycanın "yaşıl diplomatiyası" indi regional inteqrasiya, texnoloji yenilik və sosial məsuliyyət meyarlarını birləşdirən yeni enerji siyasət modelinə çevrilmişdir.

Beləliklə, Azərbaycanın enerji siyasəti yalnız hasilat və ixracın deyil, həm də planetar məsuliyyətin, texnoloji modernləşmənin və ədalətli enerji bölgüsünün ifadəsidir. Heydər Əliyevin əsasını qoyduğu, İlham Əliyevin isə qlobal səviyyəyə daşıdığı bu siyasət Azərbaycanın müasir dövrdə enerji diplomatiyasını elmi, strateji və etik əsaslarla birləşdirən nümunəvi modelə çevirmişdir.

## 6.REFERENCES

**1.** Abdullayeva, S. (2025, June 4). We are redrawing Europe's energy map. *New Azerbaijan Party*. https://yap.org.az/az/view/news/96463 (in Azerbaijani)

**2.** Azerbaijan State News Agency. (2025, June 2). *President Ilham Aliyev delivered a speech at the official opening ceremony of the 30th Caspian Oil and Gas, 13th Caspian Power exhibitions, and the 30th Baku Energy Forum.* https://azertag.az/xeber/prezident_ilham_aliyev_30_cu_caspian_oil_and_gas_13_cu_caspian_power_sergilerinin_ve_30_cu_baku_energy_forumun_resmi_achilis_merasiminde_chixis_edib____yenilenib_4__video-3589871 (in Azerbaijani)

**3.** Cherp, A., & Jewell, J. (2021). The three perspectives on energy security: Intellectual history, disciplinary roots and the potential for integration. *Current Opinion in Environmental Sustainability,* *3*(4), 202–212. https://doi.org/10.1016/j.cosust.2021.03.001 (in English)

**4.** IRENA. (2024). *World Energy Transitions Outlook 2024: Net Zero Pathways. International Renewable Energy Agency.* https://www.irena.org/Publications/2024/Nov/World-Energy-Transitions-Outlook-2024 (in English)

**5.** Kuzemko, C., Mitchell, C., Lockwood, M., & Hoggett, R. (2016). Governing for sustainable energy system change: Politics, contexts and contingency. *Energy Research & Social Science, 12,* 96–105. https://doi.org/10.1016/j.erss.2015.12.022 (in English)

**6.** Mammadov, R. (2025, June 8). *AZTV Weekly program.* https://www.youtube.com/live/i21O9AYCPfM (in Azerbaijani)

**7.** Ozdemir, F. (2022). Regional energy cooperation in the Caspian Basin: Geopolitical dynamics and integration models. *Energy Policy Journal, 164,* 112–121. (in English)

**8.** President.az. (2025, June 2). *Ilham Aliyev spoke at the 30th Caspian Oil and Gas, 13th Caspian Power, and 30th Baku Energy Forum.* https://president.az/az/articles/view/69073 (in Azerbaijani)
**9.** Qafqazinfo.az. (2025, June 2). *President attended the official opening at Baku Expo Center.* https://qafqazinfo.az/news/detail/prezident-baki-ekspo-merkezinde-resmi-acilisda-istirak-etdi-yenilenib-472456 (in Azerbaijani)
**10.** Report.az. (2025, June 2). *Ilham Aliyev spoke at the opening of the 30th Caspian Oil and Gas, 13th Caspian Power, and 30th Baku Energy Forum.* (in Azerbaijani)
**11.** Sadigli, F. (2025, June 4). The past 30 years have shown that... *Azerbaijan-news.az.* https://www.azerbaijan-news.az/az/posts/detail/oten-30-il-gosterdi-ki-1748989138 (in Azerbaijani)
**12.** Sovacool, B. K. (2016). How long will it take? Conceptualizing the temporal dynamics of energy transitions. *Energy Research & Social Science*, *13*, 202–215. https://doi.org/10.1016/j.erss.2015.12.020 (in English)
**13.** UNDP. (2023). *Sustainable Development Goals: Progress report on affordable and clean energy (SDG7).* United Nations Development Programme. (in English)

## ƏDƏBİYYAT

**1.** Abdullayeva, Ş. (2025, İyun 4). Avropanın enerji xəritəsini yenidən tərtib edirik. *Yeni Azərbaycan Partiyası*. https://yap.org.az/az/view/news/96463
**2.** AzerTac. (2025, İyun 2). *Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" sərgilərinin və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edib.* https://azertag.az/xeber/prezident_ilham_aliyev_30_cu_caspian_oil_and_gas_13_cu_caspian_power_sergilerinin_ve_30_cu_baku_energy_forumun_resmi_achilis_merasiminde_chixis_edib____yenilenib_4___video-3589871
**3.** Cherp, A., & Jewell, J. (2011). The three perspectives on energy security: Intellectual history, disciplinary roots and the potential for integration. *Current Opinion in Environmental Sustainability*, *3*(4), 202–212. https://doi.org/10.1016/j.cosust.2011.07.001
**4.** IRENA. (2024). *World Energy Transitions Outlook 2024: Net Zero Pathways. International Renewable Energy Agency.* https://www.irena.org/Publications/2024/Nov/World-Energy-Transitions-Outlook-2024
**5.** Kuzemko, C., Mitchell, C., Lockwood, M., & Hoggett, R. (2016). Governing for sustainable energy system change: Politics, contexts and contingency. *Energy Research & Social Science*, *12*, 96–105. https://doi.org/10.1016/j.erss.2015.12.022
**6.** Məmmədov, R. (2025, İyun 8). *AZTV Həftə verilişi.* https://www.youtube.com/live/i21O9AYCPfM
**7.** Özdemir, F. (2022). Regional Energy Cooperation in the Caspian Basin: Geopolitical Dynamics and Integration Models. *Energy Policy Journal*, *164*, 112–121.
**8.** President.az. (2025, İyun 2). *İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"da çıxış edib.* https://president.az/az/articles/view/69073
**9.** Qafqazinfo.az. (2025, İyun 2). *Prezident Bakı Ekspo Mərkəzində rəsmi açılışda.* https://qafqazinfo.az/news/detail/prezident-baki-ekspo-merkezinde-resmi-acilisda-istirak-etdi-yenilenib-472456

**10.** Report.az. (2025, İyun 2). *İlham Əliyev 30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” və 30-cu “Baku Energy Forum”un açılışında çıxış edib.*

**11.** Sadıqlı, F. (2025, İyun 4). Ötən 30 il göstərdi ki... *Azerbaijan-news.az.* https://www.azerbaijan-news.az/az/posts/detail/oten-30-il-gosterdi-ki-1748989138

**12.** Sovacool, B. K. (2016). How long will it take? Conceptualizing the temporal dynamics of energy transitions. *Energy Research & Social Science, 13*, 202–215. https://doi.org/10.1016/j.erss.2015.12.020

**13.** UNDP. (2023). *Sustainable Development Goals: Progress Report on Affordable and Clean Energy (SDG7).* United Nations Development Programme.